Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Könüllülük əsasında vətəndaş cəmiyyətinin formalaşması və inkişafının Azərbaycanda da uğurlu nümunəsi yaranır

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

**Aparılan araşdırmalar göstərir ki, Almaniyada təqribən 29 milyon insan boş vaxtlarında könüllü olaraq müxtəlif işlərdə çalışır. Bu işlər daha çox cəmiyyətdə qeydə alınan müxtəlif problemlərin həllinə xidmət edir. Könüllü çalışan şəxslər hazırda Almaniya əhalisinin 40 faizə yaxınını təşkil edir.**

### Cəmiyyət üçün kütləvi şəkildə faydalı iş vətəndaş birliklərinin yeni formada tərəqqisinə müsbət təsir göstərir

Mövcud vəziyyətdə insanların boş vaxtının cəmiyyət üçün faydalı işlərə sərf edilməsi məqsədilə alman dövləti tərəfindən müxtəlif layihələr həyata keçirilir. Ümumiyyətlə, son 20 ildə belə dövlət layihələrində iştirak edənlərin sayı xeyli artıb. 1999-cu ildə bu göstərici 30 faiz olduğu halda indi 40 faizə çatıb.

Eyni zamanda, könüllülər faydalı hesab edilən işlərə əvvəlki vaxtlarla müqayisədə daha az vaxt sərf edirlər. Onlar bu kimi işlərə həftədə iki saat vaxt ayırırlar. Lakin bu, işin effektivlik dərəcəsinə heç də mənfi təsir etmir. Kəmiyyət artımı keyfiyyət göstəricilərini qoruyub saxlayır. Könüllülərin əksəriyyəti idman və bədən tərbiyəsi ilə bağlı layihələrdə iştirak edir. Bunun ardınca mədəniyyət və musiqi, sosial sahə, o cümlədən məktəb və uşaq bağçaları ilə bağlı işlər gəlir. Könüllülükdə əsas rolu vətəndaş birlikləri oynayır. Xeyriyyə birlikləri, kilsələr, tərəfdaşlıqlar, yardım təşkilatları, ictimai faydalı müəssisələr Almaniyada "üçüncü sektor"un əsasını təşkil edir. Onlar həm də vətəndaş cəmiyyətinin fəal üzvləridir. Vətəndaş cəmiyyətinin bu formada birliklərinin dövlət və ya siyasi partiyalarla əlaqəsi yoxdur. Onlar sosial və siyasi məsələlərin həllində cəmiyyətin könüllü iştirak edən hissəsidir. Bu təcrübə göstərir ki, vətəndaş cəmiyyətinin formalaşmasında könüllülük prinsipi də əhəmiyyətli rol oynayır. Azərbaycanda da vətəndaş cəmiyyətinin formalaşmasında sözügedən təcrübədən istifadə hallarının müsbət nümunələri formalaşmaqdadır. Elə bu günlərdə çimərlik mövsümünün açılışı ilə əlaqədar növbəti ənənəvi sahilyanı təmizlik aksiyası təşkil edilib. Şüvəlan çimərliyində keçirilən təmizlik aksiyasının əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dəniz ətraf mühitinin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir. Ümumiyyətlə, dörd ildir ki, Abşeron yarımadasının Sahil, Buzovna, Novxanı, Görədil və Pirşağı qəsəbələrində, Səbail rayonunda, "Şıx" çimərliyi ərazisində - ümumilikdə altı yerdə fəaliyyət göstərən çimərliklərin ərazilərində mövcud özəl istirahət mərkəzlərinə və çimərliklərə alternativ yaradılıb. Bunun təşəbbüskarı isə Heydər Əliyev Fondunun vitse-prezidenti,



IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevadır. Şüvəlan çimərliyində "Sahillər təmiz qalsın" şüarı altında keçirilən təmizlik aksiyası Xəzər dənizi sahillərində gənclərin kütləvi iştirakı ilə baş tutan sayca 17-ci aksiya olub. Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları çimərlikdən 1 tona qədər tullantı toplayıb və çeşidləyiblər. Bütün tullantılar Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna təhvil verilib. Onu da qeyd edək ki, IDEA İctimai Birliyi yerli və beynəlxalq tərəfdaşlarla birgə mütəmadi olaraq Azərbaycan və regionun su bioresurslarının qorunub saxlanılması, artırılması və mühafizəsi məqsədilə Xəzər sahillərində, Kür və digər çaylarda təmizlik aksiyaları təşkil edir. Sahil zonalarında insanların xoş asudə vaxtının keçirilməsi üçün lazımi şəraitin təmin edilməsi ilə yanaşı, təmizlik, təhlükəsizlik və rahatlığına görə nümunəvi olan ictimai çimərliklərin yaradılması cəmiyyətdə ekoloji və sosial məsuliyyətin təşviq edilməsinə yönəlib. Belə yanaşma Azərbaycanda da könüllülük əsasında vətəndaş cəmiyyətinin formalaşması və inkişafına xidmət edir.

### Könüllülük fəaliyyəti dövlətin sosial siyasətinin mühüm tərkib hissəsidir

Könüllülük ölkəmizdə vətəndaş cəmiyyətinin tərəqqisində getdikcə daha mühüm rol oynamağa başlamaqla vətəndaş cəmiyyətinin ən mühüm institutuna çevrilir, bu xüsusda qabaqcıl təcrübələr formalaşır. Könüllülüyün institusional xarakteri yönəldildiyi hədəflərə görə fərqlənir. Dövlət bu prosesə ciddi dəstək verir. Ümumiyyətlə, könüllülük fəaliyyəti dövlətin sosial siyasətinin tərkib hissəsinə çevrilib.

Onu da qeyd edək ki, ölkəmizdə "könüllülük hərəkatı" "ASAN Xidmət"dən başlayıb. "ASAN Xidmət"də 30 mindən çox könüllü olub. Onların üç mindən çoxu isə elə bu qurumda işlə təmin edilib. İndi ölkədə dövlət qurumlarının böyük əksəriyyətində minlərlə gənc könüllü kimi fəaliyyət göstərir. Onlar həm də Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayırlar. Çünki geniş mənada könüllülük bu istiqamətdə fəaliyyəti həyata keçirən şəxsin özünün yaxın qohumu olmayan digər insanların xeyrinə hər hansı təmənnasız yardım və fəaliyyət deməkdir. Bu prosesin genişlənməsinə dövlət hərtərəfli yardım edir. Çünki dövlət vətəndaş cəmiyyətinin inkişafında xüsusi maraqlı tərəfdir. Hazırda vətəndaş cəmiyyətinin inkişaf etmədiyi ölkədə dövrün müasir tələblərinə uyğun tərəqqiyə nail olmaq çətindir. Hər bir ölkənin sərvəti uğurlu vətəndaş cəmiyyətinin formalaşmasıdır. Azərbaycan dövləti belə hesab edir ki, vətəndaş cəmiyyətinə dəstəyi davamlı artırmaq, onun potensialını gücləndirmək lazımdır. Eləcə də ən mühüm milli vəzifələrin həlli üçün vətəndaş cəmiyyətinin imkanlarından geniş istifadə etmək zəruridir. Çünki insan kapitalı, sosial-iqtisadi inkişaf, demokratik dəyərlərin ölkənin rifahı naminə transformasiyası üçün vətəndaş cəmiyyətinin prosesdə fəal iştirakı ən vacib amillərdən biridir. Bu fonda Azərbaycanda vətəndaş cəmiyyəti davamlı inkişaf yolundadır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**